UOT 316
DOI: https://doi.org/10.30546/25194011.2026.201.2.4.5073

# MÜASİR ŞƏHƏRİN SOSİOMƏDƏNİ TƏDQİQİ VƏ ŞƏHƏR İNKİŞAFINA DAİR SOSİOLOJİ NƏZƏRİYYƏLƏR

**TELMAN ƏLİMUSA OĞLU NİFTALIYEV**
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*"Humanitar fənlər" kafedrasının dosenti,*
*sosiologiya üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Respublikası,*
*Bakı ş. İstiqlaliyyət küçəsi, 6*
*E-mail: niftaliyev1961@gmail.com*

**LEYLA İNTİQAM QIZI TAĞIYEVA**
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*"Humanitar fənlər" kafedrasının*
*müəllimi*
*E-mail: leyla.tagiyeva.80@mail.ru*

**XÜLASƏ**

Müasir şəhərlərin inkişafı XXI əsrin əvvəllərində dünyada yaranmış mühüm problemlərlə bağlıdır. Şəhər hazırda sosial məkanın qloballaşması, telekommunikasiyaların əhəmiyyətinin artması, mədəni və siyasi innovasiyaların genişlənməsi kimi makrosəviyyəli tendensiyaların kəsişdiyi və formalaşdığı strateji məkan kimi çıxış edir. Müasir iqtisadi, siyasi və sosio-mədəni prosesləri şərtləndirən bu amil şəhər həyatına birbaşa təsir göstərir. Ona görə də şəhərin sosio-mədəni vahid kimi öyrənilməsi müasir şəhər sosiologiyasının ən aktual istiqamətlərindən birini təşkil edir.

**Açar sözlər:** *urbanizasiya, şəhərsalma, gecəqonduları, şəhər, kənd, şəhərin sosiologiyası.*

Müasir şəhərlərin inkişafı üçüncü minilliyin əvvəllərində dünyada yaranmış mühüm problemlərlə bağlıdır Bu gün şəhər sosial məkanın qloballaşması, telekommunikasiyaların rolunun artması, mədəni və siyasi innovasiyaların güclənməsi kimi makromeyillərin baş verdiyi və kəsişdiyi düyün nöqtəsinə çevrilmişdir. Müasir iqtisadi, siyasi və sosio-mədəni prosesləri şərtləndirən bu amil şəhər həyatına birbaşa təsir göstərir. Ona görə də şəhərin sosio-mədəni vahid kimi öyrənilməsi müasir şəhər sosiologiyasının ən aktual istiqamətlərindən birini təşkil edir

Hazırda əhalinin yüksək dərəcədə iqtisadi və sosial mobilliyi, insanlar arasındakı münasibətlərin öz mahiyyətini dəyişməsi, yəni anonimlik, mütəhərriklik, praqmatizm, getdikcə güclənən funksionalizm və peşəkarlıq urbanizasiyanın səciyyəvi cəhətlərini təşkil edir. Şəhər və kənd həyat tərzinin yaxınlaşması, kənd yerlərinə şəhər həyatı və şəhər sisteminin elementlərinin, xidmətlərinin müdaxiləsi urbanizasiyanın güclənməsinə gətirib çıxarmışdır. Şəhər cəmiyyətin mədəni, iqtisadi, istehsal, texnoloji və intellektual potensialının mərkəzləşdiyi ərazi kimi sosial orqanizmin struktur-məzmun zəminini təşkil edir. Bu mənada şəhər cəmiyyətin sosio-mədəni bütövlüyünün təkrar istehsalında sistemyaradıcı funksiyanı yerinə yetirir.

Urbanizasiya prosesi nəticəsində ünsiyyətin strukturunun, şəxsiyyətin inkişafının, ailə münasibətlərinin xüsusi spesifikasına malik şəhər həyat tərzi formalaşmışdır ki, onun da əlamətlərinə mobilliyi, sosial-peşəkar ünsiyyətin artan rolunu, "lokal" mədəniyyət tipinin aradan qaldırılmasını və s. aid etmək olar.

Şəhərdə bir-biri ilə qarşılıqlı əlaqədə olan və bu əsasda da şəhər sosiumunun formalaşmasına şərait yaradan müxtəlif icmaları birləşdirən mühit formalaşır ki, onun rəngarəngliyi əhalisinin spesifik sosiomədəni dünyası, yəni şəhərin özü və orada yaşayış imkanları haqqında dəyərlər, şəhərin keçmişinin, indiki gününün və gələcəyinin qiymətləndirilməsi imkanları və s. ilə səciyyələnir. Bu halda bütünlükdə şəxslərarası münasibətlər fərdə daha geniş azadlıq verən formal, özgələşmiş münasibətlərlə əvəz olunur: şəhər əhalisinin ölçüsü, sıxlığı və müxtəlifliyi mürəkkəb müasir əməkbölgüsü üçün ciddi problemə çevrilir, nəhayyət, şəhər müasir siyasi, təhsil, mədəni və digər təsisatların mərkəzinə çevrilir.

Şəhər təmsil etdiyi cəmiyyətin münasibətlər sistemini daim inkişaf və inteqrasiya etdirən mürəkkəb sosiomədəni orqanizmdir. O, şəhər hayat formalarının mürəkkəb sosial sistemi kimi çıxış edir. Məhz bu xüsusiyyətinə görə şəhər urbanizasiyaya uğramış cəmiyyətin münasibətlər sistemini formalaşdırmağa qoruyub saxlamağa və yenidən yaratmağa qadirdir.

Qlobal informasiya-kommunikasiya sistemi şəhərdə mədəni mübadilə və şəxslərarası ünsiyyət üçün şəraiti əsaslı şəkildə dəyişmişdir. Qloballaşma şəraitində urbanizasiya prosesləri nəticəsində cəmiyyətin bütünlükdə, insanın da ayrılıqda institutlaşması və identikləşməsinin yeni formaları meydana gəlir O, məkan, zaman, sosial, dil və digər maneələri müvəffəqiyyətlə aradan qaldırır. Kommunikasiya və in-

formasiya şəhərin sosio-mədəni məkanının ayrılmaz elementləri kimi çıxış edir, çünki məhz onlar sosial-mədəni dəyərlərin yaradılmasında, qorunmasında və gələcək nəsillərə ötürülməsində sosiumun əsas bazası kimi çıxış edirlər. Kommunikativ proseslər artdıqca identiklik problemi də aktuallaşır. Şəhərdə mədəni proseslərin təşkilinin müasir model və texnologiyalarına uyğunlaşmaq son dərəcə vacibdir. Milli identikliyin şəhərin sosio-mədəni məkanının tərkib hissəsi olan informasiya-kommunikativ vasitələrlə qorunub saxlanılması və informasiya-kommunikativ münasibətlərin, yeni mədəniyyətinin formalaşdırılması olduqca mühüm əhəmiyyət kəsb edir. Buradan da mədəni siyasətin prioritet vəzifəsi kimi şəhərlərin, eləcə də onlarda yaşayan insanların mədəni və milli xüsusiyyətlərinin saxlanılması məsələsi ortalığa çıxır.

Şəhərin sosio-mədəni məkanı kommunikasiyanın inkişafının hərəkətverici qüvvəsi kimi çıxış edir Informasiya məkanı şəhərin əhalisini birləşdirir, onun fəaliyyətini istiqamətləndirir və ümumi dəyərlər yaradır Şəhərin informasiya məkanı, sosio-mədəni məkanın bir hissəsi kimi, şəxsiyyətin inkişafı və mədəniyyətin məkanca təşkili üçün yeni formalar irəli sürür.

Qlobal kommunikasiya məkanında yeni, virtual birlik formalarının yaranması üçün imkanlar yaranır. Qloballaşma müəyyən mənada şəhərin mədəni mühitinə neqativ təsir göstərir. Bura mədəni dəyərlərin standartlaşdırılması və vahid hala salınmasını, insanların şüur və fəaliyyətini manipulyasiya edən texnologiyaların yayılmasını və s. aid etmək olar. Qloballaşmanın pozitiv aspektlərinə isə bunları aid etmək olar mədəni mübadilənin genişlənməsi, vahid ümumdünya informasiya məkanının formalaşması və s. Şəhər əhalisi bütün dünya ilə onlayn rejimində ünsiyyət qurmaq imkanına malikdir. Bu şəraitdə yeni mədəniyyətin informasiya, yeni etika, yeni bilik və bacarıqların formalaşdırılması mühüm əhəmiyyət kəsb edir.

İri şəhərlərin sosial-mədəni inkişafının sosioloji aspektdə təhlili Azərbaycanda ilk dəfə tədqiq edilən sahədir. Şəhərlə bağlı bəzi problemlər ölkə elmində alimlər tərəfindən tədqiq olunsa da, dünyada gedən müasir sosio-mədəni proseslər kontekstində araşdırılmamışdır. Azərbaycan müəlliflərindən M.X.Heydərovun [9], V.Q.Muradovun [10]. F.M.Əliyevin [11] və b. əsərlərində, əsasən Azərbaycan şəhərlərinin tarixi, iqtisadi-coğrafi problemləri və şəhərsalma məsələləri müzakirə olunur.

XIII əsrdə Nəsirəddin Tusi şəhərlərin idarə edilməsi prosesini şərh etməyə çalışmışdır. N.Tusi özünün "Əxlaqi-Nasir" adlı əsərində şəhərlərin yaranması və inkişaf xüsusiyyətləri haqqında məlumat verir. Şəhərləri "icma birlikləri" kimi müəyyənləşdirən N. Tusi "fəzilət şəhəri" formasını fərqləndirir. N.Tusiyə görə fəzilət şəhərində "gəlmə ilə yerli arasında heç bir fərq olmaz, alimlər, filosoflar, şairlər. xətiblər, çoxlu miqdarda müxtəlif sənətkarlar" bu şəhərlərdə məskunlaşar. Mütəfəkkirə görə, fəzilət şəhəri əhalisinin sayının çoxluğuna görə də digər şəhərlərdən fərqlənər. N.Tusi böyük şəhərlərdə ziddiyyətlərin, problemlərin, pozucu davranışların, xeyir və şərin də çox olması haqqında qeydlər edir [12, 203-225].

Orta əsr cəmiyyətşünaslarından olan İbn Xəldunun "Müqəddimə" əsərində də şəhərlər xüsusi sosial birlikər kimi izah edilir. İbn Xəldun şəhər həyat tərzini sivilizasiyanın son inkişaf mərhələsi kimi izah edir və miqyasına görə kiçik və böyük şəhərləri fərqləndirir. İbn Xəldun şəhər və kənd həyat tərzini müqayisə edərək qeyd edir ki, "kəndlilər daha təvazökar həyat tərzinə üstünlük verdikləri halda, şəhərlilər cah-cəlallı həyat yaşamağa çalışırlar. Eyni zamanda mütəfəkkir onu da vurğulayır ki, əslində bədəvi həyat tərzi şəhər həyat tərzinin formalaşmasının əsasları kimi çıxış edir, belə ki, şəhərlərdə yaşayan əhalinin nəsilləri zənginləşdikdən sonra kəndləri tərk edərək şəhərlərə gəlmiş insanlar olurlar. Buna görə də şəhərlərdə yaşamaq bədəvilərin əsas məqsədinə çevrilir. Şəhər sakini ancaq məcburiyyət qarşısında, şəhərdə yaşaya bilmədikdə bədəvi həyat tərzinə keçə bilər". İbn Xəlduna görə, kənd sakinləri daha xeyrxah, cəsur və yaxşı xüsusiyyətlərə malik insanlar olurlar, çünki onlar təbiətlə bağlı olurlar, şəhərlilər isə daha çox əyləncəli, cah-cəlallı həyata üstünlük verirlər, öz ehtiraslarını təmin etməyə çalışırlar [13, 312].

Rusiya elmində şəhər problematikası geniş müzakirə edilən mövzulardan olsa da, onun tədqiq olunan aspektdən öyrənilməsinə bəzi müəlliflərin işlərində rast gəlinir Belə ki, müasir şəhərin sosio-mədəni məkanının formalaşması məsələləri Z.N.Qaliç [14]. E.V.Sayko [16]. K.K.Krasovski [15] və b. əsərlərində birbaşa müzakirə predmetinə çevrilmişdir. Z.N.Qaliç "Sosio-mədəni məkanın formalaşmasında urbanizasiya" [14] adlı məqaləsində, E.V.Sayko özünün "Urbanizasiya tarixi inkişafın təşkiledici amili kimi" [16] adı əsərində bu məsələlərə diqqət yetirir. V.V. Vagin isə özünün "Şəhər sosiologiyası" adlı əsərində şəhərdə insanların qarşılıqlı münasibətinin, ünsiyyətin yeni formalarının yaranmasına, urbanizasiya prosesi nəticəsində ünsiyyətin strukturunun səxsiyyətin inkişafının, ailə münasibətlərinin xüsusi spesifikasına malik şəhər hayat tərzinın formalaşmasına diqqət yetirir. Belaruslu müəllif K.K. Krasovskinin "Belarusda urbanizasiya: iqtisadi-coğrafi təhlil" [15] adlı əsərində isə şəhər iqtisadi-coğrafi vahid kimi tədqiq edilir.

Maks Veber (18) istisna olmaqla, müasir sosio-

logiyanın yaradıcılarınım şəhərə dair xüsusi əsərləri olmasa da, onların ideyaları şəhər sosiologiyasının inkişafına böyük təsir göstərmişdir. M. Veber orta əsrlər şəhərinə özünün "Şəhər" adlı əsərini həsr etmişdır. Burada o, şəhərə müasir urbanizasiyalaşmış ərazinin əsas əlamətlərinə rast gəlinə bilən bir yer kimi yanaşır. Sosioloq Avropa şəhərinin üç əsas tipini - istehsal, istehlak və ticarət şəhərlərini dərindən təhlil etmiş, konkret şəhər qəsəbələrinin təkamülünü izləmişdir. Öz işində Veber "dolğun şəhər cəmiyyəti" ideal tipinin əsas xüsusiyyətləri arasında aşağıdakıları göstərirdi: müdafiə tikililəri, bazar, məhkəmə, assosiasiyanın nisbi forması, qismən də olsa siyasi muxtariyyət. Lakin Avropa monarxiyalarının, milli dövlətlərin və imperiyaların təşəkkül tapması, bu şəhərlərdə kapitalizmin inkişafı onların müstəqilliyinin itirilməsinə gətirib çıxarırdı. M. Veber heyfsilənirdi ki, şəhərlərin "zamanı başa çatmışdır".

Emil Dürkheym [17] cəmiyyəti bütünlükdə təhlil edərkən ona sadəcə fərdlərn birliyi kimi deyil, canlı bir bütöv kimi yanaşır və onun mahiyyətini şəhəri təşkil edən ayrı-ayrı vətəndaşların davranışında və özəl inkişaf qanunlarında görür. Özünün "İctimai əmək bölgüsü haqqında" adlı əsərində cəmiyyətin funksional təhlilində hər bir hissə iqtisadiyyat, ailə, hökumət və s. ümumi norma və dəyərlər sistemi əsasında qarşılıqlı əlaqə vəziyyətində göstərilir. Məhz bu normalar əsasında cəmiyyətin ayrı-ayrı üzvlərinin sosiallaşması baş verir. Dürkheym tərəfindən cəmiyyətin təhlilində əsas məsələlərdən biri onun təkamülünü "mexaniki" və "üzvi həmrəylik" dövrlərinə bölməsidir. Onlardan birincisi sənayeyəqədərki, ikincisi isə müasir cəmiyyət üçün səciyyəvidir. Dürkheym "üzvi həmrəyliyin əhəmiyyətinin artmasına ümid bəsləsə də, aqrar cəmiyyətdən sənaye camiyyətinə keçiddən, ənənəvi sosial nəzarətin dağılmasından, davranışda kütləvi sapmaların mümkün potensialının artmasından, sosial iğtişaşlar və anomiyanın güclənməsindən ehtiyat edir. Onun fikrincə, bu cür əhvali-ruhiyyənin əsasında XVIII əsrin sonu -XIX əsrdə Avropa şəhərlərinə gələn kəndli kütlələrindən ehtiyatlılıq dururdu.

Müasir şəhər sosiologiyasının yaradıcıları sırasına tam əsasda iki alman filosofu Ferdinand Tönnisi [19] və Georq Zimmeli [19] də aid etmək olar. F.Tönnis həm də icmalar sahəsində tədqiqat işlərinin əsasını qoyanlardandır (community studies). F. Tönnis cəmiyyəti təhlil edərkən elmi dövriyyəyə "icma" (gemeinshaft) və "cəmiyyət" (geselshaft) kimi anlayışlar daxil etmişdir Tönnis Dürkheymdən fərqli olaraq, gələcəyə daha pessimist yanaşırdı. O, müasir cəmiyyəti icma və sivilizasiyanın iflasa uğradığı bir sosial məkan hesab edirdi. G Zimmel [19] özünün "Metropolis və mental həyat" adlı məşhur əsərində Tönnisın bir çox ideyalarını şəhər mühitinə tətbiq edir. Şəhərin unikal nailiyyətləri sırasına Zimmel "nervous stimulis"un insana psixoloji təsirlərin intensivləşməsini aid edir (məs. müxtəlif növ psixi pozuntuların, intiharın, evsizlik təhlükəsinin potensial olaraq çox yuxarı olması). Lakin onun fikrincə, şəhər bu problemlərdən xilas olmaq üçün potensial imkanlar yaradır, fərdə öz fərdiyyətini və yaradıcılığını ifadə etməkdə sərt sosial nəzarətdən xilas olmağa imkan yaradır.

Şəhərin inkişafına dair sosioloji nəzəriyyələrdən ən tanınmışı "Çikaqo ekoloji məktəbi"dir [19] ki, onun nümayəndələri arasında R. Park. E. Bercess. L Virtin və başqalarının adlarını çəkmək olar.

Robert Park öz konsepsiyasının əsasına şəhər ekologiyasına təsir göstərən iki qrup amilləri qoyur: biotik (insanın təməl tələbatları məs.. suya, qidaya və digər resurslara olan tələbat) və mədəni (ənənələr, normalar, qanunlar və təsisatlar). Birinci səviyyənin qanunlarını həyat və resurslar uğrunda mübarizə müəyyənləşdirir. Gecəqonduları, zəngin şəhərətrafı qəsəbələri, gəlirli evlərdən ibarət məhəllələri biotik səviyyəli kortəbii qüvvələrin nəticəsi hesab edən R Park onların təhlilində "təbii areallar" terminindən istifadə edir. Bu təbii areallar müxtəlif növlərin" (əhali qrupunun) mənzil və xidmətlərlə təmin olunmaq uğrunda mübarizəsinin nəticəsidir. İkinci səviyyəni izləyərkən Park bir şəhərin daxilində çoxlu "dünyaların" (şəhərin müxtəlif hissələrində məskunlaşmış sosial, etnik va ya dini cəhətdən homogen qrupların) mövcudluğunu, bir dünyanın digərinə "müdaxiləsini" (invasion), müxtəlif dünyaların şəhərin strukturunu əhatə etməsini və s. kimi xüsusiyyətləri qeyd edir. Ernest Bervess şəhərə ekoloji yanaşımanın qrafik əlavəsini konsentrik şəhər zonaları nəzəriyyəsini yaratmışdır. Şəhərlərin zonalara bölünməsi məsələsi bu məktəbin nəzəriyyəçiləri tərəfindən bir çox nümunələr üzərində tədqiq edilmişdir. Ən tanınmış nümunələrdən biri X Zorbauxun "Qızıl sahil və gecəqondular" [19] (1929) əsəridir. Əsər Çikaqonun ən varlı ailələrinin yaşadığı şimal hissəsinin Miçiqan gölü sahilinin və şəhər gecəqondularının olduğu ən kasıb məhəlləsi "Hobohemia"nın (Hobohemia) tədqiqi üzərində qurulmuşdur.

Luis Virtin "Urbanizm şəhər tərzi kimi" (1938) [19] məqaləsində insanların şəhərlərdə həyatının psixoloji və davranış nəticələri tədqiq edilir. Burada o, şəhərin üç əsas səciyyəsini qeyd edir - əhalinin sayı, sıxlığı və bunların törətdiyi nəticələr. Virtin əsərində ikinci dərəcəli mədəni amillərin və sosial institutların əhəmiyyəti vurğulanır. L. Virtin "Getto" (1928) əsəri də şəhərin sosiologiyasının öyrənilmə-

sinə əhəmiyyətli bir töhfədir.

Ekologiya məktəbinin davamçılarından olan V. Fayrinin "Bostonun mərkəzi hissəsində torpaqların istifadəsi" (1947) [9] əsərində xeyli fakt əsasında sübut edilir ki, bu və ya digər sinfin nümayəndələrinin haradasa yerləşməsi daha çox həmin yerin tarixi əhəmiyyətindən, onun haqqında ənənəvi təsəvvürlərdən asılıdır və etnik azlıqların yerləşməsi məsələsində klassik ekoloqların əsas ideyaları işə yaramır, onların yerləşməsi əsas etibari ilə sosio-mədəni amillərlə şərtlənir.

Çikaqo məktəbinin ardıcıllarının qeyri-ortodoksal istiqamətinin nümayəndəsi olan A. Houli "Insan ekologiyası" (1950) əsərində R. Parkın mühitin formalaşmasında insanın nəzarətində olmayan qüvvələrin mövcudluğu fikri ilə razılaşaraq, əsas fikri mədəni amillərə verir. A. Houli sosio-mədəni institutları insanla ətraf mühitin qarşılıqlı əlaqəsinin adekvat mexanizminin xüsusi hissəsi adlandırır. Houli icmanı coğrafi cəhətdən lokallaşdırılmış və buna görə də tədqiqat üçün elə də bir problem olmayan təhlil vahidi kimi təqdim edir. Bundan əlavə, o, icmanı əhalinin ətraf mühitə kollektiv adaptasiyasının kompleks sistemi kimi izah edir. A.Lefevr, M.Kastels va D Harveyin [19] əsərləri sayəsində son onilliklərdə şəhərin strukturunun neomarksist siyası iqtisadiyyat nöqteyi nəzərindən şərhi şəhər proseslərini analiz edən nəzəriyyələrin əsas istiqamətini təşkil edir. A. Lefevr "Məkanın istehsalı" (1991) adlı əsərində sosial fəaliyyətin təkcə fərdlərin qarşılıqlı təsiri ilə deyil, həm də şəhər məkanlarının bir-biri ilə təmasda olması ilə baş tutması fikrini irəli sürür və şəhər məkanını sosial təşkilin ayrılmaz tərkib hissəsi hesab edir. Marksizmin şəhərin təhlilinə tətbiq edilməsində ABŞ-da çalışan ispan sosioloqu Manuel Kastelsin böyük xidməti olmuşdur. O, şəhərin əsas funksiyasını iqtisadi funksiya hesab edir, buranı kapitalist cəmiyyətində işçi qüvvəsinin təkrar istehsalının baş verdiyi, fəhlə və qulluqçuların effektiv fəaliyyət üçün əmtəə və xidmətləri istehlak etdiyi bir yer sayır. Kastelsə görə, əgər kapitalizm bir tərəfdən "ümumrifah dövləti" yaradaraq sosial sistemi dağıntılardan qoruyub saxlaya bildisə, digər tərəfdən o, yeni problemləri artan bələdiyyə və milli borcları yaratdı. Məhz bu borcun hesabına dövlət sosial proqramları maliyyələşdirmək imkanı qazanır. Bütün bu proseslər Kastelsin konsepsiyasının açar anlayışı olan "kollektiv istehlak" prosesi çərçivəsində təsvir olunur. Dövlət kapitalist cəmiyyətinin müxtəlif fraksiyalarının (biznesmenlərin, maliyyəçilərin, mülk sahiblərinin və b.) maraqları arasındakı tarazlığı saxlamağa nail olur. Lakin sosial münaqişənin kəskinləşməsi dövlətin bu funksiyalarını dağıdır. Qeyri-formal iqtisadiyyatın və onun şəhər proseslərinin inkişafında rolunun tədqiqinə dair də Kastelsin bir sıra elmi işləri vardır Son illər M. Kastels meqa-şəhərlərdəki proseslər, texnopolislərin inkişafı informasiyalaşmanın şəhərlərin inkişafının gələcəyi üçün əhəmiyyəti, iri şəhərlərin yenidən strukturlaşdırılması problemlərinə bir neçə monoqrafiya və məqalə həsr etmişdir. Britaniyalı çoğrafiyaşünas və sosioloq D.Harveyin "Sosial ədalət və şəhər" (1973) adlı əsərində şəhərdəki sosial proseslərin məkanda təcəssümü tədqiq edilir. O, sübut edir ki, şəhərin məkan siması heç də təbii bazar münasibətləri ilə deyil, əsas etibarilə böyük biznesin inhisar hakimiyyəti ilə şərtlənir.

1980-ci illərdə Britaniyada sosioloji nəzəriyyə çərçivəsində güclü neoveber məktəbi formalaşdı ki, bunu da Bellin, Nyubinin, Giddensin, Qoldtorpun və b. adı ilə bağlayırlar. Şəhərin sosiologiyasının neoveber tədqiqatçıları üçün aşağıdakı məsələlər əhəmiyyət kəsb edir: böyük sayda empirik tədqiqatların təşkili şəhərlərin tarixinin öyrənilməsi zərurəti, mövcud sistemlər çərçivəsində şəhərlərin iyerarxiyasının təhlili, şəhərlərə münasibətdə dövlət siyasətinin monitorinqi.

Beləliklə, şəhərlərdə, xüsusilə böyük şəhərlərdə son dərəcə maraqlı, ciddi, əsaslı proseslər baş verir. Ona görə də həmin proseslərin konkret sosioloji tədqiqat materialları əsasında öyrənilməsi mühüm aktuallıq kəsb edir. Biz şəhər strukturunu inkişaf edən münaqişə prosesi və mülk alverçilərinin torpaq alverçiləri, ev sahiblərinin istehlakçılarla, ictimai və özəl institutların bazar qüvvələri ilə mübarizəsi kimi görürük.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Azərbaycanın statistik göstəriciləri. 2010 Bakı: "Soda" nəşriyyatı, 2010, 840s*

2. *Azərbaycan 2006-2010-cu illərdə. Sosioloji monitorinq, 2006-2010-cu illərdə respublikada keçirilmiş sosioloji tədqiqatların nəticələrinin müqayisəli Bakı: "AZSEA" MMC, 2010, 65 s.*

3. *Əfəndiyev M. Sosiologiya. Bakı: Bakı Universiteti nəşriyyatı, 2009, 520 s*

4. *Əliyev H.Ə. Müstəqillik yolu (Seçilmiş fikirlər). Bakı: Azərbaycan Universitet 1997, 135 s.*

5. *Əzimov K.A.. R.M. Həsənov. Sosiologiya. Bakı Adiloğlu, 2003. 380*

6. *Həsənov R.M. Siyasi sosiologiya. Bakı: AzTU-nun mətbəəsi, 2010, 208*

7. *Qərbi Avropada və ABŞ-də sosiologiya tarixi. Ali məktəblər üçün dərslik. Bakı "Turan Nəşrlər evi", 2010, 612s*

8. *Vahidov F.Q., Ağayev T.B. Sosiologiya. Bakı: «Зардаби ЛТД» ММЬ, 2012,*

*9. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII Баку: 1982, 187 с.*

*10. Мурадов В.Г. Градостроительство Азербайджана XIII-XVI вв. Баку «Элм», 1984.*

*11. Алиев Ф.М. Города Северного Азербайджана во второй половине XVIII века. Баку: Изд-во АН Азербайджана, 1960.*

*12. Xacə Nəsirəddin Tusi "Əxlaqi-Nasiri", Bakı, "Lider" nəşriyyatı, 2005, s. 203-215*

*13. Бациева С.М. Бедунны и горожане в Мукаддиме Иби Халдуна. Очерки истории арабской культуры (V-XV вв.). М. Наука, 1982 г., в. 312*

*14. Галич З.Н. Особенности урбанизации на рубеже XX-XXI вв. Запад. Восток. Россия. Под ред. Э.В.Сайко. М.: Наука, 1999, 186 с.*

*15. Красовский К.К. Урбанизация в Беларуси: экономико-географический анализ. Брест: Изд-во БрГУ, 2004, 203 с.*

*16. Сайко Э.В. Урбанизация организующий фактор исторического развития. М.: Наука, 1999, 278 с.*

*17.Şazi N.K. Sosyoloji tarihi. Basım 7. İstanbul: Remzi Kitabevi, 2002, 337 s*

*18. Вебер М. Город/ М. Вебер / История хозяйства. Город / Пер. с нем. М.И. Ильиной. М.: 2001, с. 120-124.*

*19. Wallace and A. wolf, Contemporary sociological Theory; Drentice Hall: 1980.*

**Sociocultural Study of the Modern City and Sociological Theories of Urban Development**

**Telman Alımusa Nıftalıyev**
***Associate Professor of the Department of "Humanities" of the Azerbaijan State University of Economics, Doctor of Philosophy in Sociology***

**Leyla Intıgam Tağıyeva**
***Teacher of the Department of "Humanities" of the Azerbaijan State University of Economics***

**SUMMARY**

The development of modern cities is closely linked to the significant challenges that emerged globally at the beginning of the 21st century. Currently, the city serves as a strategic space where macro-level trends such as the globalization of social space, the growing importance of telecommunications, and the expansion of cultural and political innovations—intersect and take shape. This factor, which conditions modern economic, political, and socio-cultural processes, exerts a direct influence on urban life. Therefore, studying the city as a socio-cultural entity constitutes one of the most relevant and pressing directions in modern urban sociology.

**Keywords:** *urbanization, urban planning, slums, city, village, sociology of the city.*

**Социокультурное исследование современного города и социологические теории городского развития**

**Тельман Алимуса Нифталиев**
***Доцент кафедры «Гуманитарные науки» Азербайджанского Государственного Экономического Университета, доктор философии по социологии***

**Лейла Интигам Тагиева**
***Преподаватель кафедры «Гуманитарные науки» Азербайджанского Государственного Экономического Университета***

**РЕЗЮМЕ**

Развитие современных городов связано с важными проблемами, возникшими в мире в начале XXI века. В настоящее время город выступает в качестве стратегического пространства, где пересекаются и формируются такие макроуровневые тенденции, как глобализация социального пространства, возрастание значения телекоммуникаций, расширение культурных и политических инноваций. Этот фактор, обусловливающий современные экономические, политические и социокультурные процессы, оказывает прямое влияние на городскую жизнь. Поэтому изучение города как социокультурной единицы составляет одно из наиболее актуальных направлений современной социологии города.

**Ключевые слова:** *урбанизация, городское планирование, трущобы, город, деревня, социология города.*

*Rəyçi:Fəlsəfə üzrə fəlsəfə doktoru,*
*dosent Sakit Hacalı oğlu Əliyev*
*Məqalə redaksiyaya daxil olub: 09.04.2026*
*Çapa qəbul olunub: 30.04.2026*

*The date of the admission of the article to the editorial office: 09.04.2026*
*Accepted for publication: 30.04.2026*